

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 178 (23.340)

*24 sentyabr 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Süni Mayalanma Mərkəzinin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığının yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Süni Mayalanma Mərkəzinin Əsasnaməsini və ştat strukturunu hazırlayıb təsdiq etsin.
3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.
4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 sentyabr 2019-cu il*

## Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilmişdir





Sentyabrın 23-də Naxçıvan şəhərində Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.



Ali Məclisin Sədri Azərbaycanın görkəmli hərb xadimi, Azərbaycan ilk milli atıcı diviziyasının komandiri olmuş general Cəmşid Naxçıvanskinin adını daşıyan muzeyin yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, muzeyin qurulmasında əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Xalqımız qəhrəmanlığı və şücaəti ilə seçilən görkəmli sərkərdələri ilə tanınır. Böyük hərb sənətinə malik olan Azərbaycanda bu sənəti inkişaf və davam etdirən Naxçıvanskilər nəslinin nümayəndələri olan generalların mühüm xidmətləri vardır. Onlar şərəfli döyüş yolu keçmiş, gələcək nəsillər üçün nümunəvi vətənpərvərlik irsi qoyub getmişlər. Cəmşid Naxçıvanski də bu nəslin yetirdiyi altı generaldan biri olmuşdur.

Ali Məclisin Sədri demişdir: Hər bir vətəndaşda vətənpərvərlik hissinin formalaşdırılması milli mənliyin inkişaf etdirilməsindən başlamalıdır. Özünü ölkəsinin əsl vətəndaşı hesab edən şəxs fəaliyyətini məhz xalqa və Vətənə layiqli xidmət istiqamətində qurmalıdır. Ümummilli lider Heydər Əliyev deyirdi: ***"Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir".*** Şərəfli döyüş yolu keçmiş general Cəmşid Naxçıvanski Vətən məhəbbətini şəxsi maraqlarından üstün tutan, yüksək ali keyfiyyətlərə malik, zəngin mənəviyyatlı sərkərdə kimi qısa ömrünə keşməkeşli hərb tarixini sığdırmağı bacarmış, sıravi əsgərdən general rütbəsinədək yüksəlmişdir.

Qeyd olunmuşdur ki, həyatının məqsədini Vətənə xidmətdə görən Cəmşid Naxçıvanski bir-birinə zidd olan üç quruluşda yaşamasına baxmayaraq şərəfli zabit adına ləkə gətirməmiş, təmsil etdiyi nəslin və xalqın ləyaqətini qorumuşdur. O, bu yolda bütün çətinliklərə sinə gərmiş, peşəkar sərkərdə bacarığı və sədaqəti göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsində iştirak etməsi, 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda azərbaycanlı əhaliyə amansız divan tutan erməni quldur dəstələrinin komandanlıq etdiyi alay tərəfindən darmadağın edilməsi və qısa müddətdə orada əmin-amanlıq yaratması xalqının müstəqilliyini sevən sərkərdə kimi Cəmşid Naxçıvanskinin şöhrətini daha da artırmışdır. Azərbaycan hərb tarixində Cəmşid Naxçıvanski ilk milli atıcı diviziyasını yaratmış və ona komandanlıq etmişdir.

Ali Məclisin Sədri demişdir: Sovet hakimiyyəti illərində Azərbaycan xalqının repressiya qurbanı olmuş görkəmli nümayəndələrindən biri Cəmşid Naxçıvanski əsl bəraətini ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirdiyi tarixi yaddaşa və milli soykökə qayıdış siyasəti nəticəsində almışdır. Cəmşid Naxçıvanskinin adının və xatirəsinin əbədiləşdirilməsi ilə bağlı 23 iyun 1971-ci il və 8 avqust 1981-ci il tarixlərində imzalanan qərarlar görkəmli sərkərdənin irsinə ulu öndər Heydər Əliyevin böyük ehtiramıdır. Bu tarixi qərarlarla Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəb, Naxçıvan şəhərində isə Cəmşid Naxçıvanski Muzeyi yaradılmış, bir məktəbə və küçəyə onun adı verilmişdir. 1982-ci ildən fəaliyyətə başlayan Cəmşid Naxçıvanski Muzeyi ötən müddət ərzində böyük sərkərdənin keçdiyi həyat yoluna aid tarixi sənədlərin, eksponatların qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması və təbliğində mühüm rol oynamışdır.



"Bu gün açılışına toplaşdığımız bu tarixi bina 3 əsrin tarixi yaddaşını qorumaqla, xalqın azadlıq və müstəqillik epopeyasına 1918-ci ildən 1920-ci ilədək fəaliyyət göstərmiş Araz-Türk Respublikası hökumətinin fəaliyyətini də yazmışdır. Bu muzeydə Cəmşid Naxçıvanski ilə bərabər xalqımızın 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərindəki milli azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsində qəhrəmanlıq göstərən tarixi şəxsiyyətlərinin fəaliyyəti də əks olunur", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Naxçıvan tarixinin, tanınmış hərb xadimlərinin irsinin qorunub saxlandığı Cəmşid Naxçıvanski Muzeyi xalqın tarixi yaddaş salnaməsi, eyni zamanda vətənpərvərlik təliminin, dövlətçilik ənənələrinin daşıyıcısı olan mədəniyyət mərkəzidir. Bu muzey həm də gələcək nəsillərin tərbiyəsi və vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyəti ilə seçilir. Buna görə də Cəmşid Naxçıvanski Muzeyi öz fəaliyyətini xalqımız qarşısında mühüm xidmətləri olan tanınmış şəxsiyyətlərin keçdiyi həyat yolu və Araz-Türk Respublikasının timsalında müstəqillik və dövlət quruculuğu tariximizi gənc nəslə təbliğ etməli, onların Vətənə məhəbbət ruhunda tərbiyəsinə öz töhfəsini verməlidir. Xalqımızın şanlı qəhrəmanlıq tarixi, ölkəmizin müstəqilliyi və suverenliyi yolunda misilsiz xidmət göstərən qəhrəmanları həmişə yaşayacaqlar!

Cəmşid Naxçıvanski Muzeyinin direktoru Abasət Nuriyev çıxış edərək demişdir ki, muxtar respublikamızda geniş vüsət almış abadlıq-quruculuq işləri mədəniyyət sahəsini də əhatə etmişdir. Qədim diyarımızda tarixi abidələr bərpa edilir, yeni muzeylər yaradılır, muzey fondları zənginləşdirilir. XX əsrin əvvəllərində Araz-Türk Respublikasının Naxçıvan şəhərindəki qərargahı, hazırda hərb tariximizdə xüsusi yeri olan Azərbaycanın görkəmli sərkərdəsi Cəmşid Naxçıvanski Muzeyinin binası XIX əsr tarix-mədəniyyət abidəsidir. Ötən əsrin 70-ci illərində əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan tarixi-mədəni irsimizin qorunması, tarixi şəxsiyyətlərimizin adının əbədiləşdirilməsi, onların cəmiyyətə tanıdılması siyasəti bu gün uğurla davam etdirilir. Cəmşid Naxçıvanski Muzeyi binasının yenidən qurulması da Naxçıvanın tarixinə, mədəniyyətinə, görkəmli tarixi şəxsiyyətlərinə diqqət və qayğının ifadəsidir.

*Ardı 2-ci səhifədə*



Abasət Nuriyev göstərilən diqqətə görə muzeyin kollektivi və Naxçıvanskilərin tədqiqatçıları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Sonra muzeyə baxış olmuşdur. Qeyd olunmuşdur ki, muzey 6 ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. Hazırda muzeyin fondunda 5400-ə yaxın eksponat vardır. Həmin eksponatlardan 500-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir. Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi, onun uşaqlıq və gənclik, həmçinin hərbi təhsil illəri, Birinci Dünya müharibəsində iştirakı, Azərbaycan Xalq Cümhuriyyətinin təşkil etdiyi Milli Ordu quruculuğunda, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonrakı dövrdə və Moskvada Frunze adına Hərbi Akademiyada hərbi-pedaqoji fəaliyyəti, təltifləri və repressiyaya məruz qalması, eləcə də generalın ailəsi və yaxın qohumları ilə bağlı sənədlər, kitablar, fotoşəkillər və digər eksponatlar müxtəlif bölmələrdə mühafizə edilir. Araz-Türk Respublikasının fəaliyyətindən bəhs edən bölmədə isə tədqiqat materialları və tarixi sənədlər nümayiş etdirilir.

Ali Məclisin Sədri Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətinin, eləcə də Araz-Türk Respublikasının öyrənilməsi və tədqiq olunması, gənclərin, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının muzeyə ekskursiyalarının təşkili barədə tapşırıqlar vermişdir.

## Turizm Departamenti üçün müasir iş şəraiti yaradılıb





Naxçıvan Muxtar Respublikası Turizm Departamenti tarixi binada fəaliyyət göstərəcəkdir. Sentyabrın 23-də bu münasibətlə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Turizm Departamenti üçün müasir iş şəraitinin yaradıldığını bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: Bu gün muxtar respublikanın turizm potensialının artırılması istiqamətində lazımi işlər görülür. Tarixi abidələrin bərpası və milli dəyərlərimizin qorunub yaşadılması turizmin inkişafına mühüm töhfə verir. Muxtar respublikanın turizm potensialının tanıdılması və təbliği məqsədilə yaradılmış Turizm Departamentinin nəzdində Turizm-İnformasiya Mərkəzi, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi və Milli Dəyərlər Muzeyi fəaliyyət göstərir. Turizm Departamenti və Milli Dəyərlər Muzeyi Naxçıvan şəhərinin qədim tarixi binasında, Turizm-İnformasiya Mərkəzi Zaviyə-Mədrəsə binasında, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi isə bərpa olunmuş qədim Buxanada yerləşir. Bütün bunlar muxtar respublikada turizm potensialının düzgün təbliğinə hesablanmışdır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, muxtar respublikaya turist təşviqi daha da artırılmalıdır.



Ali Məclisin Sədri demişdir: 2019-cu ilin yanvar-avqust ayları ərzində dünyanın müxtəlif ölkələrindən muxtar respublikaya 250 minə yaxın turist gəlmişdir. Bunun bir hissəsi Turizm-İnformasiya Mərkəzinin apardığı işlər nəticəsində mümkün olmuşdur. Ona görə də muxtar respublikanın turizm potensialı, zəngin tarixi-mədəni irsi, mətbəxi və müasir inkişafı ilə bağlı informasiyalar internet üzərindən daha geniş yayılmalı və təbliğat işləri aparılmalıdır. Binada yaradılan şərait imkan verəcəkdir ki, bu vəzifələr uğurla yerinə yetirilsin. Çünki muxtar respublikaya turistlərin cəlbi digər sahələrin də inkişafına təsir edir. Eyni zamanda muxtar respublika barədə həqiqətlər, tariximiz, mədəniyyətimiz, milli dəyərlərimiz dünya ölkələrinə tanıdılır.

Ali Məclisin Sədri bir daha kollektivi təbrik etmiş və açılışı bildirən lenti kəsmişdir. Bildirilmişdir ki, binada Turizm Departamenti və “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi üçün iş otaqları, eləcə də 50 yerlik iclas zalı yerləşir.

Ali Məclisin Sədri iclas zalında turizm şirkətləri üçün təlim və seminarların, eləcə də ali təhsil müəssisələrinin Turizm və otelçilik ixtisası tələbələrinin iştirakı ilə görüşlərin keçirilməsi, muxtar respublikanın turizm potensialı barədə internet saytlarında və sosial şəbəkələrdə təbliğat işlərinin aparılması barədə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Həyətdə Möminə xatın və Nuh Peyğəmbərin məzarüstü türbələrini, Naxçıvan Muxtar Respublikasının turist marşrutları xəritəsini əks etdirən panolar quraşdırılmışdır. Turist marşrutları xəritəsində 3 müxtəlif istiqamət üzrə 24 daşınmaz tarix-mədəniyyət abidəsi, 4 su dəyirmanı, 2 müalicə mərkəzi, 2 istirahət mərkəzi, 3 təbiət abidəsi, otel, çimərlik və muzey öz əksini tapmışdır.

## Naxçıvan şəhərində Milli Dəyərlər Muzeyi fəaliyyətə başlamışdır



Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Biz milli dəyərlərimizi qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlərboyu böyük sınaqdan keçmiş bu dəyərlər ruhunda tərbiyələndirməliyik”.***

Ulu öndərimiz ölkəmizə rəhbərliyi dövründə milli dəyərləri milli dövlət quruculuğunun aparıcı elementinə çevirmişdir. Bu gün müstəqil Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında milli dəyərlərimiz qorunub yaşadılır. Sentyabrın 23-də Naxçıvan şəhərində yeni fəaliyyətə başlayan Milli Dəyərlər Muzeyi də bu sahədə görülən işlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muzeydə yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, muzey otaq və 3 ekspozisiya zalından ibarətdir. Hazırda muzeyin fondunda 236 eksponat vardır. Ekspozisiyada Azərbaycan Respublikasının Dövlət Bayrağı, gerbi və Dövlət Himninin mətni, milli geyimlərimiz və qədim mətbəx əşyalarımız, xalçalar və milli musiqi alətlərimiz nümayiş olunur. Milli sənətkarlıq nümunələrindən ibarət eksponatlar, muxtar respublikanın tarixi, mədəniyyəti, memarlıq abidələri, adət-ənənələri ilə bağlı çap olunmuş kitab və ensiklopediyalar, turizm potensialının təbliğinə dair bukletlər müxtəlif guşələrdə sərgilənir.

Ali Məclisin Sədri Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə və Mədəniyyət Nazirliyinə muzey fondunun zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tariximizin, görkəmli şəxsiyyətlərimizin və milli dəyərlərimizin öyrənilməsi sahəsində görülən işlərə görə muxtar respublika ziyalıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası ilə bağlı elektron layihəyə 52 mindən çox baxış olmuşdur

2019-cu ilin avqust ayında Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının *preslib.az* internet saytında Naxçıvan Muxtar Respublikası barədə fəaliyyət göstərən eyniadlı elektron layihə ən çox izlənilən resurslar arasında ilk yerlərdədir. Bu günə qədər saytda Naxçıvan Muxtar Respublikası ilə bağlı bölməyə 52 mindən çox baxış olmuşdur. Azərbaycandan sonra müraciətlərin ən çox daxil olduğu ölkələr Fransa, Amerika Birləşmiş Ştatları, Türkiyə, İran, Almaniya, İraq və İtaliyadır.

Qeyd edək ki, *preslib.az* saytında Naxçıvan Muxtar Respublikası barədə elektron layihə 2009-cu ildə yaradılmışdır. İnternet istifadəçiləri saytdakı Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən *nakhchivan.preslib.az* bölməsini seçməklə Naxçıvan Muxtar Respublikasının ərazisi, tarixi, idarəetmə quruluşu, görkəmli şəxsiyyətləri, muxtar respublika ilə bağlı rəsmi sənədlər, iqtisadiyyat, elm, təhsil, səhiyyə və mədəniyyətin inkişafı ilə bağlı məlumatlar, elektron kitablar və məqalələr toplusu ilə ətraflı tanış olmaq imkanına malikdirlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub. Bu məqsədlə keçirilən iclasda komitə sədri, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli mövsümə hazırlıqla bağlı görülən tədbirlərdən danışıb.*

Qeyd olunub ki, elektrik və qazla işləyən qızdırıcı cihazların muxtar respublikaya idxalına uyğunluq sertifikatı əsasında icazə verilir. Qanunvericiliyə əsasən vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar məcburi sertifikasiyadan keçməlidir. Standartlara uyğunluğu təsdiq edən sertifikat olmadıqda həmin malları ölkə ərazisində satmaq və istifadə etmək qadağandır.

Vurğulanıb ki, aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış tədbirlər planına əsasən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının satışının qarşısının alınması və gətirilmə yollarının müəyyən edilməsi məqsədilə satış yerlərində reydlərin təşkili, istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması, kütləvi informasiya vasitələrində maarifləndirici verilişlərin və materialların hazırlanması nəzərdə tutulub.

Dövlət qayğısı hesabına muxtar respublikamızda müasir gömrük infrastrukturunun yaradıldığını önə çəkən komitə sədri gömrük orqanlarında qışa hazırlıqla bağlı görülən işlərdən də danışıb. Qeyd olunub ki, qazanxanaların fəaliyyəti, elektrik enerjisi ilə təchizat, su və kanalizasiya xətlərinin vəziyyəti, avtomaşınların sazlığı, əməkdaşların qış geyim dəstiylə təchizatı məsələləri istiqamətində işlər vaxtında başa çatdırılmalı, payız-qış mövsümündə də gömrük nəzarəti zonalarında və inzibati binalarda xidmətin yüksək səviyyədə təşkili təmin olunmalıdır.

Çıxışda standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinin qarşısının alınması ilə bağlı maarifləndirmə işlərinə diqqətin artırılmasının vacibliyi vurğulanıb. Bildirilib ki, gömrük orqanları verilən tapşırıqların icrasını daim diqqət mərkəzində saxlamalı, muxtar respublikada təhlükəsiz həyatın təmin edilməsinə öz töhfəsini verməlidir.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində keçirilən tədbirdə xidmətin rəisi Namiq Paşayev məruzə ilə çıxış edərək bildirib ki, payız-qış mövsümündə elektrik qurğularında baş verə biləcək qəzaların vaxtında aradan qaldırılması üçün qəza-bərpa briqadalarının yaradılması, elektrik qurğularında mövcud qüsurların aşkar edilməsi məqsədilə elektrik xətlərinə və transformator yarımstansiyalarına növbədənkənar baxışların keçirilməsinin təşkili, elektrik enerjisi itkisinin minimum həddə saxlanması üçün görülən tədbirlərin davam etdirilməsi, ifrat gərginlikdən mühafizə qurğularının sazlığının yoxlanması və yenilənməsinin təşkili, artıq yüklənmiş güc transformatorlarının daha güclüləri ilə əvəz edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Xidmət rəisi diqqətə çatdırıb ki, muxtar respublikada bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib. Naxçıvan şəhəri, Babək qəsəbəsi və Şərur şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Hazırda bu tip sayğacların sayı 24 min 437 ədəd olub.



Naxçıvan Muxtar Respublikası üzrə quraşdırılan bütün növ elektrik sayğaclarının sayı isə cari il avqustun 31-dək olan tarixə 93 min 675 ədəd təşkil edib.

Vurğulanıb ki, son illər muxtar respublikada işlədicilərin etibarlı və fasiləsiz enerji ilə təchiz edilməsində avadanlıqların yenilənməsi və yeni enerji istehsalı mənbələrinin istifadəyə verilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilib. Bütün bunlar muxtar respublika rəhbərinin enerji sektorunun inkişafına göstərdiyi daimi diqqət və qayğının nəticəsində mümkün olub. Bunu yaxşı başa düşən energetiklər bundan sonra da öz fəaliyyətlərini muxtar respublika rəhbərinin tələbləri və tapşırıqları əsasında quraraq əhalini etibarlı enerji ilə təchiz etməyə çalışacaqlar.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



*"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən yığıncağı cəmiyyətin direktoru Mahir Əliyev açıb.*

Qeyd olunub ki, cəmiyyətin idarə və struktur təsərrüfatlarında payız-qış mövsümünə hazırlığına dair qərargah yaradılıb, ötən mövsümdəki işlər təhlil edilib, aşkar olunan nöqsanlar nəzərə alınmaqla bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Yük və Sərnişin Daşımaları İdarəsinin Culfa Lokomotiv Deposunda payız-qış mövsümündə istismar olunacaq 5 ədəd elektrovozun və 5 ədəd manevr-magistral teplovozun hərəkət və dartı hissələri müayinə olunaraq onlarda cari və depo təmirləri həyata keçirilir.

Mövsüm ərzində vaqon və lokomotivlərin normal və fasiləsiz istismarının təmin olunması məqsədilə qabaqlayıcı tədbirlər görülərək, Bakı şəhərindən 920 daraqlı və çuqun əyləc qəlibi, 75 metr müxtəlif diametrli tros, 2 manevr teplovozu üçün su nasosu, 100 sonluq kranı, 180 kiloqram sürtkü yağı, 200 müxtəlifölçülü misqrafit dırça, 6 cüt ox yastığı, 415 kiloqram babbit təbəqəsi, 462 metr müxtəlif enkəsikli kabel, elektrovozlar üçün 10 cərəyanqəbuledicinin xizəyi, 200 dayaq izolyatoru, 289 ressor yayı, 8 təkər cütü və digər zəruri ehtiyat hissələri tədarük edilib.

Mahir Əliyev deyib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar 104 müxtəliftipli vaqonda cari və depo təmirləri aparılaraq istilik sistemləri ilə təchiz edilmiş sərnişin vaqonlarının və aralıq stansiyalarda növbətçi otaqların qızdırılması üçün 7,775 ton kömür ehtiyatı yaradılıb. Mövsüm ərəfəsində isə əlavə olaraq 80 ton kömürün alınıb gətirilməsi təmin ediləcəkdir.

Məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

*AMEA Naxçıvan Bölməsində tanınmış tədqiqatçı və ekspert, yazıçı-jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru Rövşən Novruzoğlunun "Əshabi-Kəhfə məktub: sürgündə qalan əhli-əyalım var" kitabının təqdimat mərasimi keçirilib.*

## Rövşən Novruzoğlunun "Əshabi-Kəhfə məktub: sürgündə qalan əhli-əyalım var" kitabının təqdimat mərasimi keçirilib





Tədbirdə çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, müəllif Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən, "Qurani-Kərim"də adıçəkilən müqəddəs məkan – Əshabi-Kəhf mağarası ilə bağlı geniş araşdırmalar aparıb, çoxsaylı tarixi mənbələri və arxiv materiallarını nəzərdən keçirərək bu kitabda toplayıb. Nəşr mövzuya yeni, daha dərin yanaşma və orijinal təhkiyə üslubu ilə fərqlənir.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunan kitabda oxucuya qədim dövr səyyahlarının, tarixçilərinin Əshabi-Kəhf haqqında indiyədək məlum olmayan qeydləri, fikir və mülahizələri, həmçinin bir çox tarixi fakt və məlumatlar təqdim edilir. Əsər 11 bölmədən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxışında qeyd edib ki, bu gün muxtar respublikamızda cəmiyyətin dini-mənəvi ehtiyaclarına diqqət və qayğı ilə yanaşılır. Multikultural və milli-mənəvi dəyərlərimiz qorunur, dini bayramlarımız yüksək səviyyədə qeyd edilir. Ziyarətgahlarımız, məscidlərimiz təmir və bərpa olunaraq əhalinin istifadəsinə verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında" 2014-cü il 20 avqust tarixli Sərəncamına əsasən muxtar respublikada multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təşkil edilməsinə, dövlət-din münasibətlərinin daha dolğun tənzimlənməsinə şərait yaradır.

Vurğulanıb ki, dünya mədəni irsinin ortaq dəyəri olan Əshabi-Kəhf ziyarətgahında ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 1998-ci ildə əsaslı bərpa və yenidənqurma işləri aparılıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1998-ci il 9 fevral tarixli "Əshabi-Kəhf ziyarətgahının bərpası və qorunması tədbirləri haqqında" Sərəncamına uyğun olaraq ziyarətgahda abadlıq-bərpa işləri aparılıb, zəvvarlar üçün şərait yaradılıb, tarixi məscid bərpa olunub. Həmin tədbirlərin davamı olaraq 2006-cı ildə bu tarixi abidə ətrafında yenidənqurma işləri aparılıb, yeni tikililər salınıb, ziyarətçilər üçün əlverişli şərait yaradılıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında siyasi elmlər üzrə fəlsəfə doktoru Rövşən Novruzoğlunun "Əshabi-Kəhfə məktub: sürgündə qalan əhli-əyalım var" kitabının təqdimatının keçirilməsi də tarixi minilliklərə dayanan bu dini-mədəni abidənin yeni tədqiqatlar əsasında öyrənilməsi və təbliğinə dövlət qayğısının daha bir ifadəsidir. Surə Seyid kitabın ərsəyə gəlməsində böyük əməyi olan müəllifə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından təşəkkürünü bildirib, gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev vurğulayıb ki, dünyanın 20-dən çox ölkəsində Əshabi-Kəhf mağarası var. Hər ölkənin tədqiqatçıları həmin mağaraların "Qurani Kərim"də adıçəkilən Əshabi-Kəhf olduğunu sübut etməyə çalışırlar. Amma Rövşən Novruzoğlunun yeni nəşrdə topladığı faktlar onu deməyə əsas verir ki, müqəddəs kitabımızda adıçəkilən Əshabi-Kəhf məhz Naxçıvandadır. Bu kitabda həm də ziyarətgah yaxınlığındakı su quyuları, kəhrizlər, o cümlədən Naxçıvanda yaşamış din xadimləri barədə də məlumatlar verilir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Sahib Məmmədov çıxış edərək kitab haqqında öz fikirlərini bölüşüb, müəllifə yaradıcılıq uğurları arzulayıblar.

Çıxışlarda bildirilib ki, son iyirmi ildən artıq bir müddətdə Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı tədbirlər çərçivəsində Naxçıvanla bağlı kitabların nəşrinə böyük yer verilib. Qədim diyarla bağlı bütün əsərlər, xüsusilə muxtar respublikanın tarixi və mədəniyyəti ilə əlaqədar aparılan elmi-tədqiqat işləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət mərkəzindədir. Bu kitabların bir hissəsi Ali Məclis Sədrinin himayəsi ilə nəşr olunur, elmi ictimaiyyətə, xalqa çatdırılır. "Əshabi-Kəhfə məktub: sürgündə qalan əhli-əyalım var" kitabı da bu qəbildəndir. Tədqiqatçı Rövşən Novruzoğlunun elmi ictimaiyyətə təqdim etdiyi maraqlı və yeni faktlarla zəngin olan bu kitab diqqətəlayiqdir. Müəllif bir sıra mənbələr, xüsusilə xristian ölkələrinin arxivlərində "Tam məxfi" möhürü ilə mühafizə olunan materiallar əsasında Naxçıvandakı Əshabi-Kəhf, o cümlədən XII imam haqqında çox maraqlı bir əsər hazırlamışdır.

Kitabın müəllifi Rövşən Novruzoğlu qeyd edib ki, o, 7 ildən artıq bir müddətdə dünyanın 12 ölkəsinin arxivlərində araşdırma və tədqiqatlar apararaq bu kitabı ərsəyə gətirib. Bildirib ki, qoyulan qadağa və çətinliklərə baxmayaraq, Vatikan arxivlərində tədqiqatlar aparılıb, Əshabi-Kəhfə və XII imama aid tam məxfi sənədlər aşkar edilib. Müəllif kitabının təqdimatına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

**Gülcamal TAHİROVA**

## Növbəti plener-müsabiqə



*Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş gənc rəssamların növbəti plener-müsabiqəsi təşkil olunub.*

Keçirilən müsabiqədə ali və orta ixtisas təhsili müəssisələrindən 24 istedadlı gənc iştirak edib.

Gənc rəssamlar müxtəlif mövzularda işlədikləri rəsmlərdə doğma diyarımızın tarixi keçmişi, zəngin təbiəti, bugünkü inkişaf proseslərini, mifologiyanı, ekoloji prosesi, sülhü, təxəyyül və duyğularını kətan üzərinə köçürüb, onları özlərinə məxsus çalarlarla əks etdiriblər.

Münsiflər heyətinin qərarı ilə 10 gənc I yerə, digər 10-u isə II yerə layiq görülüb.

Müsabiqənin qaliblərinə təşkilatçılar tərəfindən qiymətli hədiyyələr və diplomlar təqdim edilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

Naxçıvan mətbəxi

# Evdar xanımlarımızın qış azuqəsi – əriştə

*Ta qədimdən qışa hazırlıqla bağlı qayğıların bir hissəsi qadınlarımızın öhdəsində olub. Bu adət nənələrimizdən analarımıza, onlardan da qızlarımıza ötürülüb. Evdar qadınlar bilirdilər ki, yayda hər işi öz qaydasına qoyub əl damını, payızda isə taylarla çörək yapıb çörək yeşiklərini doldurmaq lazımdır. Ona görə ki, sərt, soyuq günlərdə uşağın, böyüyün ruzisi olsun. Həm də ki qapıya qəfil qonaq gələndə təlaşa düşüb: nə bişirəcəyəm? – deyə məəttəl qalmasınlar. Qışa tədarükün ən vacib tədbirlərindən biri də əriştə kəsməkdir. Bu iş kollektiv şəkildə görülür. Çünki əriştəni hazırlayıb hasilə gətirmək tək adamın işi deyil.*



Bu günlərdə Sədərək rayonunda qonağı olduğumuz ailə təsərrüfatçısı Mehbarə Hüseynova da əriştə kəsmək üçün hazırlıq görürdü. Yaxın qonşuları isə ona köməyə gəlmişdilər. Mehbarə deyir ki, bu işi növbə ilə görürük, bir gün birimizin, sabah digərimizin evində əriştə kəsməyə kömək edir, ya da ki bir nəfərin həyatında hazırlıq görür, növbə ilə əriştə kəsirik. Bu gün ailə təsərrüfatı kimi həm ağ, həm də qara undan əriştə istehsalı ilə də məşğul oluruq. Bunun üçün, ilk növbədə, səhər tezdən durub lazım olan əşyaları – oxlovu, çörək taxtasını hazır qoymuşam. Qızların köməyi ilə iplərdən şərit düzəltmişəm. Bu iplərə kəsilmiş əriştəni asırıq ki, qurusun. İplərin altına mütləq təmiz süfrə səririk. Hazırlıq işlərini bitirdikdən sonra xəmir yoğururuq. Xəmirin yoğurulmaq qaydasından danışan qonşu Aybəniz xala deyir:

– Əriştə üçün yoğurulan xəmirin suyu soyuq olmalıdır. Bir çini ləyənə su, duz, yumurta əlavə edir, bərk xəmir yoğurur, kündələyirik. Bu xəmiri çox miqdarda yoğurmaq məsləhət deyil, çünki hansı un olursa-olsun, ondan yoğurulan xəmiri müəyyən müddət saxlayanda içərisinə maya vurulub-vurulmamasından asılı olmayaraq, o acıyır. Əriştə isə acımış xəmirdən olmaz. Buna görə də xəmiri az-az yoğurmaq məsləhətdir. Kündələri çörək taxtasının üstündə bacardığımız qədər nazik ölçüdə açırıq.

Söhbətin bu yerində bizə qoşulan, yaşı 70-i ötmüş Tamella nənə deyir ki, əriştəni kömәkli kəsirik, bir nəfər kündə açır, o biri əriştəni kəsir, ikisi dəstav vurur, yəni kəsilmiş əriştəni bir əli ilə tutur, digər əli ilə unlayıb dəstələyir və uzadır, digəri isə daşıyıb ipdən asır. Əriştə kəsəndə onun yuxasını açmaq üçün xüsusi bacarığı olan qadınlar seçilir. Lavaş açanlar yaxşı bilər, oxlovu kündəyə elə vurmaq lazımdır ki, kündənin ortası nazikləşib kənarları qalın olmasın. Yuxanı yaxşı yaymaq bacarığı olanlar bu işi elə ustalıqla görürlər ki, onun ortası ilə kənarları eyni ölçüdə olur. Nənə onu da deyir ki, əvvəllər əriştəni qəməlti (mətbəx bıçağı) ilə əldə kəsirdilər. İndi əriştəni kəsmək üçün əriştəkəsən alətlər olsa da, mən qızlarıma məsləhət görürəm ki, bu işi öz əlləri ilə görsünlər. İtilənmiş bıçaq və evdar bir qadının əlindən çıxan əriştə yaxşı olmaya bilməz. Əgər işi ki, zəhmətlə, dədə-baba qaydası ilə görmədin, onda hazırladığın yeməyin dadı da olmaz.



Biz nənənin şirin söhbətinə daldığımız zaman qonşu Tərlan xanımın səsini eşidirik: “Artıq kündələr hazırdır, əriştə kəsməyə başlaya bilərik”. O, öncə yuxanı unlayıb ucları əlinin içində olmaqla ortadan birləşdirir, sonra əlinin içində saxladığı ucları da eyni formada unladığı yuxanın üstünə örtür. Sol əlini uzunsov formada unlayıb düzəltdiyi yuxanın üstünə qoyaraq bıçaqla kəsir.

Mehbarənin sözlərinə görə, əriştəni kəsərkən əlimizi elə saxlamalıyıq ki, həm yuxa əzilməsin, həm də bıçağın əlimizlə yuxa arasındakı məsafəsi az olsun. Belə halda əriştə daha nazik olar. Kəsib qurtardıqdan sonra yuxanın arasını açır, əriştəni dəstələmək üçün digər yoldaşına verirsən.

Əriştələr hazır olandan sonra onları qurutmaq üçün ipdən asan Nailə deyir ki, birinci növ unun əriştəsi daha qüvvəli olur və həm dəstava yaxşı gəlir, həm də ipdə asan quruyur, qırılıb yerə tökülmür. Qara undan əriştə kəsəndə isə onu təzə pendir suyu ilə yoğururuq ki, xəmir qüvvəli olsun.

Quruduqdan sonrakı mərhələ haqqında söhbət açan Aybəniz xala deyir ki, tam qurumuş əriştələr süfrənin içərisinə yığılır. Sonra ondan bir qismini sulu əriştə bişirməyə saxlayır, qalanını isə plov üçün qovururuq. Bunun üçün öncədən əriştəni kiçik hissələrə bölür, qovurulan zaman yanıb qaralmasın deyə ununu əfsəyirik. Daha sonra ocaq qalayır, mis sacı ocağın üstünə qoyuruq, sac qızdıqdan sonra onun içərisini yağlı bir dəsmalla silir, əriştəni az-az töküb qovururuq. Qovrulan əriştə yenidən əfsənir və əvvəlcədən tikib hazırladığımız pambıq torbalara, ya da ki şüşə bankalara yığırıq.

Söhbətimizə qoşulan Tamella nənə bildirir ki, bəziləri əriştəni polietilen torbaya, ya da ki plastik qablara yığıb nəmişliyi olan yerdə saxlayırlar. Bu qaydada saxlanan un məmulatları dad-tamını tez bir zamanda itirir. Yeri gəlmişkən, nənə soyuqdəymənin dərmanı olan əriştə şorbasının hazırlanma qaydasından da danışır:

– Qış fəslində bişirilən xörəklər içərisində əriştə istisi (Şərur, Sədərək və Kəngərli rayonlarının bir çox kəndində bu yeməyə “umac aşı” da deyirlər) və əriştə aşının xüsusi yeri vardır. Soğanı qovurmanın yağında qızardırıq. Bu zaman bir soğan doğranılır, bir neçə balaca ölçülü soğan isə bütöv şəkildə qazana atılır.

Nənə deyir ki, əriştə istisinə dad verən məhsullardan biri də onun içərisinə bütöv şəkildə atılmış soğanlardır. Hələ payızda soğan tədarük olunanda ən balacaları seçilərək əriştə istisi bişirmək üçün qışa saxlanılar. “Maş” adlandırılan kiçik-ölçülü lobya dənələri, zövqə görə noxud da ayrıca qaynadılır. Suyu süzülür və yeməyə əlavə olunur. Quru alça, ərik yuyulur, əriştə qazana tökülməmişdən qabaq xörəyə vurulur. Bu yeməyə xüsusi dad və ətir verən isə ələyəzdir. Onu xörəyə vurmazdan əvvəl mütləq qaynar suda islatmaq lazımdır. Sonra həmin ələyəzi möhkəm sıxırıq ki, “acı suyu” çıxsın. Nənə bir məsləhət də verir: – Əriştəni təzə-təzə kəsib bu yeməyi bişirəndə daha dadlı olur. Bir də ki, kəsilən əriştəni dəstələyəndə bir az unlu saxlayıb yeməyə əlavə edəndə onun suyu qatılaşır. Bu da həm doyuruculuğu, həm də dadı artırır. Qazana ən son əlavə edilən əriştə suyun üzünə çıxanda yemək hazır olur.

Nənə sözlərini bitirər-bitirməz evin gəlini əlində bir qazan umac aşı həyətdəki tut ağacının altında açılmış süfrəyə yaxınlaşır və əriştə kəsənləri nahara dəvət edir. Deyir ki, adətimizdir, əriştə kəsilən gün həmin evdə sulu əriştə bişiririk. Hamı əl birliyi ilə kəsdikləri əriştəni qurumağa qoyub süfrə başına toplaşır. Yemək yeyildikdən sonra xanımlar əriştəni çeşidləyib qovurmağa başlayırlar. Biz də “ağız şirinliyi ilə yeyin”, – deyib onlardan ayrılırıq.

✍ Ramiyyə ƏKBƏROVA

## İmtahanlar davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya öz işini qanunvericiliyin tələblərinə uyğun olaraq yerinə yetirmiş, keçirilən imtahanlarda obyektivliyin və şəffaflığın tam təmin edilməsi üçün bu istiqamətdəki tədbirləri avqust ayında da davam etdirmişdir. Bir dövlət orqanının qanunvericiliyə uyğun olmayan qərarı ləğv etdirilmişdir.*



Ay ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrinə işə qəbul üçün 599 nəfərin iştirakı ilə test imtahanları keçirilmişdir. Müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqənin sənəd qəbulu aparılmış, vakant vəzifələrin tutulması üçün 82 nəfər sənəd təqdim etmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində vakant vəzifələrin tutulması üçün sənəd qəbulu həyata keçirilmiş, müsabiqədə iştirak etmək üçün 78 nəfər qeydiyyatdan keçmişdir. Dövlət orqanlarında vakant sektor müdiri, baş məsləhətçi və böyük məsləhətçi vəzifələrinin tutulması üçün 3 nəfərin müsahibəsində komissiya nümayəndəsinin iştirakı təmin edilmişdir.

Avqust ayında komissiya tərəfindən dövlət qulluğu üçün təşkil edilmiş hazırlıq kurslarında 58, sınaq imtahanlarında 30 nəfər iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

## Mineral su bulaqları qeydiyyata alınmışdır

*Ötən ay Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə məqsədilə 9 yoxlama-reyd keçirilmişdir.*

Bundan başqa, Naxçıvan şəhəri, Culfa, Ordubad, Babək və Şahbuz rayonlarının 20-dən çox yaşayış məntəqəsində ekoloji monitorinqlər aparılmışdır. Monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması kimi fəaliyyət sahələri ekoloji cəhətdən qiymətləndirilmiş, mövcud nöqsanların aradan qaldırılması nəzarətdə saxlanılmışdır.

Avqust ayında meşələrin yanğından mühafizəsi üçün profilaktik tədbirlər davam etdirilmişdir. Toxum tədarükü məqsədilə 2000 kiloqramdan çox ərik, alma, alça, gilənar, tut toxumu yığılmış və aqrotexniki qaydada anbarlaşdırılmışdır. Meyvəçiliyin inkişafı ilə əlaqədar olaraq yeni meyvə sortlarının gətirilməsi və mədəni bağçılığın inkişaf etdirilməsi istiqamətində tədbirlər çərçivəsində püstə bağında calaq edilmiş ağaclara aqrotexniki qulluq göstərilmişdir. Həmçinin Ordubad, Culfa, Babək və Şahbuz rayonları ərazisindəki mineral su bulaqları qeydiyyata alınmış, onların koordinatları müəyyən edilmiş və tədqiq olunmaq üçün bulaqlardan su nümunələri götürülmüşdür. Yaylaq mövsümünün başa çatması ilə əlaqədar yay otlaq sahələrindən istifadə edən oba sakinləri və təsərrüfat sahibləri ilə maarifləndirici görüşlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

## Döyüş atışlı taktiki təlimlər olub

“Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı”na əsasən Əlahiddə Ümumqoşun Ordunun artilleriya, reaktiv və tank əleyhinə batareyaları ilə döyüş atışlı taktiki təlimlər keçirilib.



Döyüş tapşırığının icrasına yaxınlaşdırılmış şəraitdə keçirilən təlimlərdə əsas məqsəd zabitlərin ixtisas biliklərinin təkmilləşdirilməsinə və batareyaların daim döyüşə hazır olmasına yönəldilib.

Planlı və plandankənar hədəflərin tam dəqiqliyi ilə məhv edildiyi təlimlərdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

**Nəriman NƏCƏFOV**

## Poverliftinq üzrə yarış keçirilib

*19-22 sentyabr tarixlərdə Xırdalan şəhərində yerləşən Zirvə İdman Kompleksində poverliftinq üzrə Açıq Azərbaycan Kuboku keçirilib.*



Yarışda ölkənin ayrı-ayrı regionlarını təmsil edən, həmçinin Türkiyə, İran və Rusiyadan olan, ümumilikdə, 100-dən çox atlet müxtəlif çəki dərəcələrində medal mübarizəsi aparıb.

Yarış müxtəlif versiyalar üzrə Rusiya və Finlandiyada keçiriləcək dünya çempionatları, həmçinin digər beynəlxalq turnirlərə seçmə və sınaq xarakteri daşıyıb. Həmin yarışda Naxçıvan Muxtar Respublikasının idmançısı dəfələrlə Dünya, Avropa və Respublika çempionu Əli Əsgərov və idmançı Turan Qədimli də iştirak edib.



Gərgin mübarizə şəraitində keçən yarışın sonunda Əli Əsgərov 82, Turan Qədimli isə 67 kiloqram çəki dərəcəsində I yerin sahibi olub. Qaliblərə təşkilatçılar tərəfindən medal və diplomlar təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

**İtmişdir**

Səfərov Vüsal Fərhad oğlunun adına 19 aprel 2008-ci ildə verilmiş AO-0961661 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 545-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 643